# QƏDİM NAXÇIVANIN İQTİSADİ-MƏDƏNİ ƏLAQƏLƏRİ



Yer üzündə qəsəbə, kənd, şəhər və s. tipli yaşayış məskənləri saysızdır. İnsan zəhməti ilə yaranmış bu məskənlərin heç biri birdən-birə, bir neçə gün ərzində meydana çıxmamışdır.Bunun üçün illər, hətta əsrlər lazım olmuşdur.Hələ ibtidai icma dövründə insanlar yaşayış məskəni üçün yer seçərkən ərazinin təbii ehtiyatlarını, strateji mövqeyini və digər üstünlüklərini nəzərə almışlar. Zaman keçdikcə, həmin yaşayış yerlərindən bəziləri tarix səhnəsindən çıxmış, bəziləri isə dəfələrlə təbii dağıntılara, yadelli işğalçıların hücumlarına məruz qalsa da, öz görkəmini saxlaya bilmiş və zəmanəmizə qədər mövcudluğunu itirməmişdir. Belə yaşayış məskənlərindən biri Naxçıvan şəhəridir. Əlimizdə olan tutarlı faktlar-arxeoloji materiallar, yazılı mənbələr, müdriklərin kəlamları və s. göstərir ki, Naxçıvan hələ 5 min il bundan əvvəl ilkin şəhər (protoşəhər) mədəniyyətinin formalaşdığı qədim yaşayış məskəni olmuşdur.

Naxçıvana ərazicə yaxın olan qədim Şumer sivilizasiyası ilə iqtisadi-mədəni əlaqələr zəminində mədəniyyətlərin birindən digərinə ötürülməsi prosesləri baş vermişdir ki, bunlardan biri də ilkin şəhərlərin meydana çıxmasıdır. Kiçik Asiyada eramızdan 6 min il əvvəl Çatal-Hörük kimi proto şəhərlərin formalaşması Şumerdə 5-6 min il bundan əvvəl Ur, Uruk, Nippur və s. kimi şəhər dövlətlərin meydana çıxması söz yox ki, qonşu ərazilərdə də belə yaşayış məskənlərinin formalaşmasına yol açmışdır[1,s.4].

Arxeoloji materiallar göstərilən dövrdəNaxçıvan ərazisində yaşamış qədim tayfaların qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrinin daha da artmasından xəbər verir. Arxeoloq V.H.Əliyev Ön Asiyatipli boyalı qabların, firuzə və minalı pasta muncuqların, kaurilərin tapılmasını nəzərə alaraq, hələ eneolit dövründən qədim Naxçıvan tayfaları ilə Şumerlər arasında əlaqələrin olmasını göstərir [2,s.39] .

İlk tunc dövründə - təxminən 5000 min il bundan əvvəl Naxçıvanın Kür-Araz tayfaları ilə Yaxın Şərq ölkələri arasında mübadilənin inkişafı daha da güclənmiş, bu dövrün ticarətində şübhəsiz ki, iribuynuzlu heyvan və metal əsas yer tutur.

Abidələrdən yarımfabrikatlar tökmək üçün qəliblərin aşkar edilməsi (I Maxta, I və II Kültəpələr) hazır metal məmulatlarının ticarətdə istifadə olunduğunu göstərir.İlk tunc dövrünə aid tərkibində yüksək nikel qarışığı olan metal əşyalar da belə mübadilənin olduğuna sübutdur. Azərbaycanda, ümumiyyətlə Qafqaz ərazisində nikel yataqları olmadığından, tədqiqatçılar nikelli tuncun İran vəAnadolu mənşəli olmasıfikrindədirlər[3, s.229-235].



Naxçıvanın Yaxın Şərq ölkələri ilə mübadiləsinin mövcudluğunu II Kültəpənin ilk tunc dövrü təbəqəsindən tapılmış mavi şirli pasta muncuqlar da sübut edir.V.H.Əliyev II Kültəpə, Qızılburun, Şahtaxtı, Çalxanqala və Qalacıqdan aşkar olunan, üzəri firuzəyi şirlə örtülmüş pasta muncuqların Azərbaycana e.ə II minilliyin birinci yarısında daxil olduğunu göstərir. Arxeoloq H.F.Cəfərov qeyd dir ki, belə muncuqlar Azərbaycana təkcə Ön Asiyadan deyil, eyni zamanda Misirdən də gətirilmişdir.

Orta tunc dövründə müxtəlif istehsal və sənətkarlıq mərkəzlərininmeydana çıxması əmək bölgüsünün dərinləşməsinə səbəb olmuş, mədəni əlaqələrin genişlənməsi nəticəsində Naxçıvan-Urmiya hövzəsində istehsal olunan boyalı keramika məmulatı müasir Gürcüstan, Ermənistan ərazilərinə, Gəncəçay rayonuna və Mil-Qarabağ düzünə yayılmışdır. Şübhəsiz ki, Mil-Qarabağ düzünün qara cilalı, ştamp naxışlı keramikası da mübadilədə müəyyən rol oynamışdır. Lakin, boyalı qabların əsas istehsal mərkəzlərindən Cənubi Qafqaz ərazisinə yayılması yalnız iqtisadi-mədəni əlaqələrin nəticəsi deyil, bu, həm də müəyyən tayfa birliklərinin göstərilən ərazilərdə məskunlaşması ilə bağlı olmuşdur.

Qədim Naxçıvan tayfalarının qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrinin genişlənməsində metal emalının mühüm əhəmiyyəti olmuşdur.Məlum olduğu kimi, tunc e.ə. IV-III minilliklərdə mis və mərgümüş qarışığı əsasında istehsal edilmişdir. Naxçıvan ərazisində yerləşən Darıdağda qədim mərgümüş yataqlarının aşkar olunması göstərir ki, bu zəngin xammal ehtiyatı yerli tayfaların Yaxın Şərq və Ön Asiya tayfaları iləəsas mübadiləvasitələrindən birinə çevrilmişdir.

V.H.Əliyev qeyd edir ki, uzaq ölkələrdən gətirilən qalay Naxçıvan ərazisinə Urmiya-Culfa-Naxçıvan və ya Anadolunun qədim şəhərləri ilə Şərurun Sədərək,Oğlanqala, Şahtaxtı kimi qədim şəhər mərkəzlərini birləşdirən yollarla daxil ola bilərdi. Bu qədim karvan yolları ilə gətirilən qalay e.ə II minillikdə Naxçıvanda yeni və yüksək keyfiyyətli tunc metal istehsalının meydana gəlməsinə imkan yaratmışdır[ 2, s. 42-43].

Şübhəsiz ki, bu ticarətin digər yayılma istiqamətləri dəmövcud olmuşdur. Urmiya hövzəsi- Muğan Xəzərin qərb sahilindən keçən yolu Azərbaycanın digər yaşayış məskənlərinə istiqamətlərdən biri kimi qeyd etmək olar.

Metallurgiya və metalişləmənin coşğun inkişafı yalnız xammalın deyil, hazır metal əşyaların da mübadilə edilməsinə səbəb olmuşdur. Yaxın Şərq ölkələrindən Azərbaycana gətirilən Ön Asiya tipli xəncərlər buna misal ola bilər. Bu xəncərlərin Azərbaycan ərazisində ilk nümunəsi keçən əsrin sonunda Qızılburundan tapılmışdır. Onun uzunluğu 30, eni 4, tiyəsinin uzunluğu 23 sm-dir. Qafqaz üçün xarakterik olmayan bu tip xəncərlər e.ə. II-I minilliklərdə Azərbaycanın digər bölgələri, müasir Ermənistan, Gürcüstan və demək olar ki, bütövlükdə Ön Asiyada geniş ərazidə yayılmışdır.V.H.Əliyev belə xəncərlərin Misir, Assuriya və İran mənşəli olması fikrini irəli sürmüşdür.Belə xəncərlər ən çox Misir, Suriya və Fələstin ərazisindən tapılmışdır.

II Kültəpənin ilk tunc dövrü təbəqəsindən tapılmış, tərkibində cüzi gümüş,qalay,nikel və dəmir olan əşya hələlik Azərbaycanda qurğuşundan hazırlanmış ən qədim əşya sayılır.-Tədqiqatçı İ.R.Səlimxanov qeyd edir ki, qədim insanların əldə etdiyi ilk metallar mis, qızıl və gümüş olub.-Sonradan onlar bir sıra metallarla yanaşı, e.ə. IV minilliyin ortalarında qurğuşunla tanış olublar. M.N.Rəhimova hesab edir ki, Ön Asiyada qurğuşunla tanışlıq e.ə. 6500- cü ildən başlasada, Azərbaycanda qurğuşunun əldə edilməsi Ermənistan, Gürcüstan və Misirlə eyni xronoloji çərçivədə dayanır. I Kültəpədə 11,2 m dərinlikdən tapılmış bu əşyanın dövrü e.ə. IV-III minilliklərin qovşağına düşür.

Maraqlı tapıntılardan biri də silindrik möhürlərdir. Tədqiqatçılar belə hesab edir ki, silindrik möhürlərin ilk vətəni Mesopatamiya olmuş və orada bunlardan e.ə.V minilliyin sonu - e.ə.IV minilliyin əvvəllərindən istifadə olunmuşdur.

Yaxın Şərq ölkələri ilə əlaqələrdə duz ticarəti də mühüm yer tutmuşdur. Regionda ən zəngin və ekoloji cəhətdən təmiz olan Duzdağ yatağının tunc dövründə istismar edildiyi artıq sübut edilmişdir. Duz yalnız yerli tayfaların tələbatı üçün deyil, həmçinin qonşu ölkələrə ixrac edilmək üçün də istehsal edilmişdir. Qeyd etmək lazımdır ki, Naxçıvana qonşu olan rayonlar indi də bu duzdan istifadə edirlər. Bu, Naxçıvan duzunun təmiz və zərərsiz olması ilə bağlıdır [4].

Gəmiqayada rast gəlinən araba təsvirləri, habelə I Kültəpə, II kültəpə, I Maxta yaşayış yerlərindən aşkar olunan gil təkər modelləri, təkərli nəqliyyatın inkişafı ilə bağlıdır.Naxçıvanın başlıca mədəni mərkəzlərdən olan Urmiya və yaxın Şərq ölkələrinin qonşuluğunda yerləşməsi bu ölkələrlə iqtisadi-mədəni əlaqələrin genişlənməsi üçün əlverişli şərait yaratmışdır. Bu mədəni əlaqələr Qədim Şərq sivilizasiyasının əldə etdiyi nailiyyətlərin Naxçıvan ərazisində yaşayan tayfalar tərəfindən mənimsənilməsi və onların tərəqqisinə səbəb olmuşdur. Arxeoloji tapıntılar bu əlaqələrin şərqdə Çinə, qərbdə Misirə, Mesopatamiyaya, şimalda Qara dəniz sahillərinə uzandığını göstərir[5,s.82].

Tunc dövründə Azərbaycanda formalaşan arxeoloji mədəniyyət qonşu ölkələrləsix iqtisadi-mədəni əlaqələr əsasında inkişaf etmişdir. Bu əlaqələrin mövcudluğu şəraitində Azərbaycan tayfalarının iqtisadi-mədəni inkişafı Ön Asiya və Yaxın Şərq ölkələrinin əldə etdiyi nailiyyətləri mənimsəməklə zənginləşmiş və öz növbəsində onların da inkişafına qarşılıqlı zəmində müəyyən təsir göstərmişdir.

***Sevinc MUXTAROVA,***
***AMEA Məhəmmd Füzuli adına Əlyazmalar İnstitutu, biblioqrafiyaşünaslıq şöbəsi, kicik elmi isci***